**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 7**

**Bakı şəhəri** **05 iyul 2023-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Elnur Yaşasın oğlu Quliyevin Abşeron Rayon Statistika İdarəsinin baş mühasib vəzifəsinin tutulması üçün 2023-cü il iyun ayının 06-da keçirilən ümumi müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Quliyev Elnur Yaşasın oğlu Abşeron Rayon Statistika İdarəsinin baş mühasib vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il aprel ayının 10-da elan edilmiş ümumi müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2023-cü il iyun ayının 06-da Dövlət Statistika Komitəsi aparatının Maliyyə və təsərrüfat şöbəsinin müdiri Tatyana Kuzina, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Elnur Abbasov və müstəqil ekspert Bulud Sadıqovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Quliyev Elnur Yaşasın oğluna müsahibə komissiyasının üzvlərinin hər biri tərəfindən 13 bal verilmiş və nəticədə iştirakçı 13 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 08.06.2023-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Quliyev Elnur Yaşasın oğlunun 08 iyun 2023-cü il tarixli apellyasiya şikayəti təmin edilməsin və Abşeron Rayon Statistika İdarəsinin baş mühasib vəzifəsinin tutulması üçün 2023-cü il iyun ayının 06-da keçirilən ümumi müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: